# AMEA Naxçıvan Bölməsinin əməkdaşları Bəhruz Kəngərli Muzeyində



AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşları Azərbaycanın ilk realist rəssamı Bəhruz Kəngərlinin Naxçıvan şəhərindəki muzeyini ziyarət ediblər.

Burada əməkdaşlara mədəniyyət ocağı haqqında məlumat verilərək bildirib ki, muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2001-ci il 22 may tarixli Sərəncamı ilə yaradılıb və Ümummilli lider Heydər Əliyevin iştirakı ilə 2002-ci il iyun ayının 18-də açılıb.

Qeyd olunub ki, digər mədəniyyət müəssisələri kimi dövlətin diqqət və qayğısı əhatəsində olan muzeydə hazırda 1300-ə yaxın eksponat mühafizə olunur ki, bunların da 61-i orijinal əsərlərdir. Burada Azərbaycan rəssamlıq sənətində öz dəsti-xətti olan, Bəhruz Kəngərli məktəbi yaradan rəssamın şəxsiyyətini tamaşaçılara yaxından tanıtdıran sənədlər, fotoşəkillər, nəsil foto-albomu, istifadə etdiyi şəxsi və məişət əşyaları, o cümlədən, müxtəlif illərdə işıq üzü görən kitab və monoqrafiyalar, albom-kataloq və digər eksponatlar nümayiş etdirilir. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində, estetik zövqünün formalaşmasında böyük rol oynayan mədəniyyət müəssisəsində realist sənətkarın yaradıcılığını hərtərəfli təbliğ etmək üçün tez-tez müxtəlif və rəngarəng tədbirlər həyata keçirilir.

Sonra bölmə əməkdaşları muzeyin ekspozisiyası ilə yaxından tanış olublar.